Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) insanları ən çox cənnətə salan meyar haqqında soruşuldu. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) isə belə buyurdu: "Təqva və gözəl əxlaq

Əbu Hureyrə (Allah ondan razı olsun) demişdir: Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) insanları ən çox cənnətə salan meyar haqqında soruşuldu. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) isə belə buyurdu: "Təqva və gözəl əxlaq". Sonra insanları ən çox cəhənnəmə aparan məsələ haqqında soruşuldu və buyurdu ki: "Ağız (dil) və cinsiyyət orqanı".

[Həsən səhih] [Ət-Tirmizi, İbnu Məcə və Əhməd rəvayət etdi]

Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) bəyan edir ki, insanı cənnətə salan səbəblərin ən başlıcası iki səbəbdir: Allah qorxusu və gözəl əxlaq. Allah qorxusu: Bu, özünlə Allahın əzabı arasında sədd qoymaqdır, bu isə Onun əmirlərini yerinə yetirməklə və qadağalarından çəkinməklə baş verir. Gözəl əxlaq: gülər üzlü olmaq, xeyir etməyə can atmaq və əziyyət verməkdən çəkinməklə olur. İnsanı cəhənnəmə salan səbəblərin ən başlıcası iki səbəbdir: Dil və cinsiyyət orqanı. Dilin işlətdiyi günahlar: yalan, qeybət, sözgəzdirmə və başqalarıdır. Cinsiyyət orqanının işlətdiyi günahlar: zina, homoseksuallıq və başqalarıdır.

http://sunnah.global/hadeeth/az/show/5476